# MasterKure® 176

## Betona qulluq etmək üçün hidrokarbonat qətran əsaslı buxarlanmanı azaldan material

### MATERİALIN TƏQDİMATI

**MasterKure® 176** betonun dözümlülüyü üçün, yeni yerləşdirilmiş betonun üzərində nazik təbəqə yaratmaqla, suyu betonunn tərkibində tutan, yüksək möhkəmliyi təmin edən, tez qurumanın qarşısını alan, plastik sıxılmanı azaldan keyfiyyətləri özündə təmsil edən hidrokarbonat qətran əsaslı materialdır.

### TƏTBİQ SAHƏSİ

- Beton meydançalarda və hava limanlarında;
- Beton yolların tikintisində;
- Betonlanan kanallarda;
- Aşağı nəmlik, yüksək buxarlanma və hava axını olan sahələrdə beton tökdükdə istifadə olunur.
- Şaqüli və üfüqi struktur elementlərdə.

### ÜSTÜNLÜKLƏRİ

- Betonun dözümlü olması üçün brezent, su və buna bənzər üsullara alternativ keyfiyyətdə, daha effektiv və əlverişli üsullara malik olması. Bütün beton növlərində istifadə oluna bilməsi;
- Yarımşəffaf səth yaratması;
- Tez zamanda quruma sayəsində yaranan, plastik sıxılma çatlarını azaltması;
- Daha möhkəm səth yaratması;
- Parafin əsaslı materiallarla müqayisədə dözümlülüyünü daha effektiv təmin etməsi;
- İşlədilmə sadəliyi və əmək sərfini azaltması.

### TEXNİKİ XÜSUSİYYƏTLƏRİ

| | |
|---|---|
| **Materialın mənşəyi** | Hidrokarbonat qətran əsaslı |
| Rəngi | Şəffaf məhlul |
| Sıxlığı | 0,87-0,89 kq/litr |
| Alışma nöqtəsi | 88°C |
| Tamamlanmış təbəqənin görünüşü | Şəffaf, hamar lentvari təbəqə |
| Su tutumu (ASTM C 309) | Uyğun |
| Su tutumu (ASTM C 309) | 72 saat sonra maksimum 0,55 kq/m$^2$ |
| Quruma müddəti | 45 dəqiqə |

### TƏTBİQ QAYDASI

**MasterKure® 176** təzə tökülmüş betonun səthinə püskürtmə yolu ilə və ya diyircəkli fırça ilə mümkün olduğu qədər bərabər qalınlıqda çəkilir. Meydanca betonu və döşəmə betonunun üzəri hamarlandıqdan sonra, səthi parlaqlığı yox olana kimi, avadanlıq betonunda isə avadanlıq götürüldükdən dərhal sonra **MasterKure® 176** ilə örtülür.

### SƏRFİYYAT

Orta sərfiyyatı 0,16-0,19 kq/m² təşkil edir. Açıq havada və ya küləkli hava şəraitində betonun effektiv dozümlüyünü təmin etmək üçün, 6 saatdan sonra birinci layın üzərinə daha bir lay da çəkmək olar. Bu şəraitdə sərfiyyatı sərfiyyatı 0,3 kq/m²-a qədər artırmaq mümkündür. Kölgədə olan daxili səthlər üçün sərfiyyat aşağıdır. Daha ətraflı məlumat almaq üçün **Master Builders Solutions Azerbaijan** şirkətinin texniki xidmətinə müraciət olunmalıdır.

A brand of MBCC GROUP

# MasterKure® 176

## Betona qulluq etmək üçün hidrokarbonat qətran əsaslı buxarlanmanı azaldan material

### AŞAĞIDAKILARA DİQQƏT YETİRİLMƏLİ

**MasterKure® 176** səthdə müntəzəm quruluş alana qədər püskürtmə yolu ilə istifadə olunması məsləhət görülür. İstifadə olunan **MasterKure® 176**-nın effektivliyi: təbəqənin qalınlığından, atmosfer şəraitindən, UB (ultrabənövşəyi) şuaların təsirindən və beton səthinin vəziyyətindən asılı olaraq dəyişir.
Əğər səthə üzlük lay vurulması nəzərdə tutularsa, onda **MasterKure® 176** ilə örtülmüş səthi təbəqəni həlledici maddə və yaxud mexaniki üsullarla cıxarmaq olar.
**MasterKure® 176**-nı vərdənə (diyircəkli fırca) vasitəsilə nazik laylarla çəkmək lazımdır. Materialı bərabər qaydada çəkmək lazımdır, Göllənmənin əmələ gəlməsinə imkan vermək olmaz.
• Homogen olmayan tətbiqlərdə, regional rəng fərqlilikləri meydana gələ bilər. Tətbiqi təqib edən günlər içində bu rəng fərqlilikləri azalacaq.
• **MasterKure® 176**-nın tərkibində həlledici maddə vardır. Anbarda və tətbiüq olunduğu sahələrdə açıq alovun təmasından qorunmalıdır. Anbar sahələri və tətbiq yeri havalandırılmalıdır.

### *Alətlərin təmizlənməsi*

İstifadə olunan püskürdücünü və yaxud vərdənəni (diyircəkli fırca) həlledici maddə vasitəsi ilə təmizləmək lazımdır. Əgər püskürtmə ucluğunun təkrar istifadə olunması nəzərdə tutularsa, onda onu həlledici maddənin icərisində saxlamaq lazımdır.

### QABLAŞDIRMA

180 kq-lıq çəlləklər.

### SAXLAMA MÜDDƏTİ

Normal saxlama şəraitində, istehsal edildiyi gündən 12 ay təşkil edir. Açılmış qablaşdırmanın qapağı yenidən kip bağlanarsa, onda materialı bütün saxlama müddətində istifadə etmək olar.

### SAXLAMA QAYDASI

Orijinal qablaşdırmada, +5°C+30°C temperaturda üstü örtülü, günəş şualarının birbaşa düşməsindən qorunan yerlərdə saxlanılmalıdır. Anbarda və işlədilən zonalarda acıq alovun təmasından qorunmalıdır. Anbar sahələri və tətbiq yeri havalandırılmalıdır.

---

**Məsuliyyət**

Bu texniki sənəddə qeyd olunan məlumatlar, elmi və praktiki biliklərimizə əsaslanmaqdadır.
**“Master Builders Solutions Azerbaijan” MMC** yalnız məhsulun keyfiyyətinə görə məsuliyyət daşıyır.
Məhsulun harada və hansı şəraitdə istifadə olunması ilə bağlı yazılı məsləhətlər istisna olmaqla və ya səhv istismar səbəbindən yarana biləcək nəticələrə görə **“Master Builders Solutions Azerbaijan” MMC** məsuliyyət daşımır.
Hazırkı texniki sənəd başqa yeni sənədin dərc olunduğu vaxta qədər etibarlıdır. 01.11.2020

**“Master Builders Solutions Azerbaijan” MMC**

**Fabrik** : AZ 5022, Sumqayıt şəhəri, H.Z.Tağıyev qəsəbəsi, (Bakı-Quba magistralı)
Tel : (+99 418) 653 10 30
**Satış ofisi** : AZ 1025, Bakı şəhəri, Xocalı pr. 55, Ağa iş mərkəzi, 12-ci mərtəbə
Tel : (+99 412) 585 10 30
**Email** : caspian@mail.mbcc-group.com

www.master-builders-solutions.com/az-az